

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 25 (23.187)

5 fevral 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.

Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən Kristian Faythinger bildirib ki, bu gün Beynəlxalq Astronavtika Federasiyasına 68 ölkədən 368, o cümlədən Azərbaycandan olan 3 təşkilat daxildir. O, Azərbaycanda kosmik sənayenin uğurla inkişaf etdiyini və bu sahədə ölkəmizin son vaxtlar əldə etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı 1973-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Beynəlxalq Astronavtika Federasiyasının Bakıda keçirilən XXIV konqresini məmnunluqla xatırlayıb və o zaman həmin tədbirin beynəlxalq əhəmiyyətli bir hadisəyə çevrildiyini, konqresdə məşhur kosmonavtların və astronavtların iştirak etdiyini vurğulayıb. Azərbaycanda kosmik sənayenin inkişafına toxunan Prezident İlham Əliyev bu sahənin ölkədə ən prioritet istiqamətlərdən biri olduğunu deyib və Azərbaycanın dünya kosmik ailəsinə daxil olmasını məmnunluqla qeyd edib.



Naxçıvan Muxtar Respublikası – 95

# Muxtariyyətimizin və müstəqilliyimizin bəhrələri

***Naxçıvan beş min ildən artıq şəhər mədəniyyətinə, çoxəsrlik tarixə, dövlətçilik ənənələrinə malik, qütblərin və qitələrin qovuşduğu, Böyük İpək Yolunun üzərində yerləşən bir məkandır. Bu qədim diyar xüsusi əlverişli coğrafi mühitdə, mühüm geostrateji mövqedə yerləşdiyinə, təbii sərvətlərlə zəngin olduğuna görə tarixən beynəlxalq əhəmiyyətli kəsişdiyi, siyasi maraqların toqquşduğu bir ərazi olub. Naxçıvanın keşməkeşli, siyasi və hərbi mübarizələr dolu şanlı salnaməsində onun 95 illik muxtariyyət tarixinin özünəməxsus yeri var.***



Az qala bir əsrə yaxın həmin tarixi dövr bir daha sübut edir ki, 1924-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılması bu qədim diyarın gələcək müqəddəratının həlli, erməni işğalından qorunması, ümumiyyətlə, ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından çox mühüm siyasi əhəmiyyətə malikdir. Doğma diyarımızın muxtariyyətinin yaradılmasının yubileyləri dəfələrlə dövlət səviyyəsində qeyd olunmuş, ötən dövrlə bağlı müxtəlif elmi-tədqiqat işləri, müqayisəli statistik təhlillər, araşdırmalar aparılmış, muxtariyyət tariximiz elmi-kütləvi, bədii-publisistik əsərlər mövzusuna çevrilmişdir. Bu məqalədə muxtariyyətin ən böyük nailiyyətindən, milli azadlıq hərəkatının başlandığı dövrə, müstəqillik illərinə təsadüf edən mühüm tarixi mərhələdə milli şüurumuzda, siyasi, hərbi, iqtisadi, mədəni təfəkkürümüzdə inqilabi yeniliklər yaratmasından danışacağıq.

### Müstəqillik ideyalı milli təfəkkür işığında

Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddialarının baş qaldırması, mərkəzin ikiüzlü siyasət yürüdərək hadisələri alovlandırması heç də "tarix təkrar olunur" möcüzəsi deyil, 1918-1920-ci illərdə də Naxçıvanı Azərbaycandan qoparmaq istəyən bədnam Ermənistanın mənfur işğalçılıq siyasətinin növbəti təzahürü idi. Muxtariyyət statusunun qədim diyarımızın təhlükəsizliyinin təmin olunmasında necə müstəsna rol oynaması ilk olaraq erməni təcavüzünə məruz qalan Naxçıvanın 1990-cı il yanvarın 19-da keçmiş SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsində göstərdi. Bu, o dövr üçün SSRİ kimi nəhəng bir imperiyanı məhvərindən sarsıtmaq, məhvini labüdləşdirmək kimi analoqu olmayan, qətiyyət və cəsarət tələb edən siyasi hadisə idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi blokada nəticəsində iqtisadi və siyasi böhran məngənəsinə düşən, erməni yaraqlılarının hücumları ilə təkbətək qalan muxtar respublikanı məhv olmaq təhlükəsindən xilas etdi. Müstəmləkəçiliyə qarşı kütləvi şəkildə mübarizəyə qalxan naxçıvanlılar məhz yeganə xilasedici liderin – ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşməklə erməni işğalçılarını yerində oturda, Naxçıvana qarşı biganə münasibət göstərən Azərbaycanın mərkəzi hakimiyyətinə öz etiraz səslərini ucalda bildilər. Naxçıvan şəhəri milli müstəqillik ideyalarının ilk rüşeymlərinin yetişdiyi paytaxta, gələcək müstəqilliyimizin bərqərar olmasında əhəmiyyətli siyasi-tarixi rol oynayacaq mütərəqqi ideyalar məkanına çevrildi.

Ulu öndərin 1990-1993-cü illərdə – Naxçıvanın taleyinin həll edildiyi bir məqamda buradakı siyasi fəaliyyəti dövrü Azərbaycanın dövlətçilik tarixinin mühüm bir mərhələsini təşkil edir. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə Naxçıvan parlamentində muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı bərpa edilmiş, dünya azərbaycanlılarının birliyini rəsmiləşdirmək üçün 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan edilmiş, 20 Yanvar faciəsinə və Xocalı soyqırımına siyasi qiymət verilməsi tələbi irəli sürülmüşdür. Süquta məhkum SSRİ-ni bərpa etmək xülyası ilə irəli sürülən və müttəfiq respublikaların suveren hüquqlarını pozan "ittifaq müqaviləsi"nin əsl mahiyyətini dahi şəxsiyyətin böyük siyasi uzaqgörənliklə xalqa çatdırması, naxçıvanlıların bu referendumda iştirakdan birmənalı şəkildə imtina etməsi muxtariyyət statusunun bu diyara bəxş etdiyi mühüm tarixi-siyasi nailiyyət idi. Bu gün yarım milyondan artıq siyasi həmfikri öz ətrafında toplayan, liderliyini qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təməli də məhz 1992-ci ildə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvan şəhərində qoyulmuşdur. Bu qətiyyətli siyasi addımlar bir daha sübut edir ki, Naxçıvan həmin dövrdə, ümummilli liderin rəhbərliyi ilə, Azərbaycanın gələcək müstəqil dövlət quruculuğu konsepsiyasının işlənilib hazırlandığı baş qərargah rolunu oynamışdır.

Ulu öndərin siyasi fəaliyyətindən və artan nüfuzundan ciddi narahatlıq keçirən ovaxtkı iqtidar onu hakimiyyətdən kənarlaşdırmaq üçün Naxçıvanın beynəlxalq müqavilələrlə təsbit olunmuş muxtariyyətini ləğv etmək istəyirdi. Bu, çətin və mürəkkəb ictimai-siyasi proseslər dövründə Naxçıvanı yenidən "mübahisə zonası"na çevirməklə ermənilərə könüllü təslim etmək demək idi. Bu həm də naxçıvanlıların tarixi iradəsi əleyhinə getmək idi. Məlumdur ki, 1918-1920-ci illərdə də Naxçıvan əhalisi, ziyalıları diyarın ingilislər tərəfindən Ermənistana verilməsinə qarşı çoxlu qurbanlar bahasına şərəfli mübarizə aparmış, daşnak qüvvələrini darmadağın edib şəhərdən qovmuşlar. Bütün müsibətlərə sinə gərərək ermənilərin işğal planlarını puça çıxaran naxçıvanlılar milli ləyaqət mücəssəməsinə çevrilmişlər. 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusu zamanı bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verməklə siyasi iradə nümayiş etdirmişdir. Görkəmli dövlət xadimi muxtariyyət əleyhinə çıxan, bütövlükdə, Azərbaycanın ərazi toxunulmazlığını təhlükə altında qoyan milli və siyasi təfəkkürdən uzaq "siyasətçi"lərlə qətiyyətlə mübarizə aparmış, 1992-ci ilin mart və avqust aylarında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirmişdir. Dahi rəhbər dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməklə, Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş etməklə Ermənistanın ilk və ən böyük beynəlxalq siyasi məğlubiyyətə uğramasına nail olmuşdur. Ulu öndər demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Ümummilli liderin rəhbərliyi ilə işlənib hazırlanan, 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirdi.

Muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması siyasəti bu gün də uğurla həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyətli məqam əks olunmuşdur. Ali Məclis Sədrinin tövsiyəsi ilə hazırlanmış həmin hissənin nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilməsi Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən, 1921-ci ildə qəbul olunan Moskva və Qars beynəlxalq müqavilələrinin hüquqi qüvvəsinin Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilat tərəfindən tanınması böyük diplomatik uğur kimi tarixə yazılmışdır.

### "Bir millət, iki dövlət" ideyası gerçəkləşdi

Böyük kapitalist dövlətlərinin, bolşevik Rusiyasının Naxçıvanı Ermənistana verməkdə məqsədi Türk dünyasının bir-biri ilə əlaqəsini kəsmək idi. Lakin 70 illik böyük bir tarixi dövrdə sovet ideoloqlarının apardıqları ruslaşma siyasəti belə, naxçıvanlıların milli təfəkküründəki türkçülük ideyalarını sarsıda bilməmişdi. *"Bir millət, iki dövlət"* məramının reallığa çevrilməsi mərhələsi də Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvandan başlanmışdı. Naxçıvanın muxtariyyət statusunu təsbit edən beynəlxalq müqavilənin tərəfdaşlarından olan Türkiyə Cümhuriyyətinin muxtar respublikanın bu illər ərzində qorunub saxlanılmasında, inkişafında özünəməxsus rolu olmuşdur. 1992-ci ilin martında Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası qoyulmuşdur. Həmin dövrdə ulu öndər Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanmış, həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Avropa ilə Asiyanı, Türk dünyasını birləşdirən, illərin həsrətini sona çatdırmaqla sabaha ümid yaradan bu körpü ilə Azərbaycan-Türkiyə arasındakı gələcək mənəvi birliyə, həmrəyliyə, müttəfiqliyə körpü salınmışdır. Ötən bu illər ərzində Türkiyə-Azərbaycan əlaqələrində, Türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yeri olmuşdur. 2008 və 2017-ci illərdə Türkiyənin Baş nazirinin

Ardı 2-ci səhifədə

Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün Naxçıvanda keçirilməsi, sammit çərçivəsində "Naxçıvan Bəyannaməsi"nin imzalanması bunun daha bir sübutu kimi mühüm tarixi hadisədir. 2010-cu ilin oktyabr ayında Azərbaycan-Türkiyə Biznes-Forumunun Naxçıvanda keçirilməsi isə iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır.

Ali Məclis Sədrinin 2010-cu il 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfər etməsi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin sonrakı inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının yaradılması və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır. Ötən il Türk Şurası Gənc Liderlərinin ilk forumunun coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşən Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırdı. Ali Məclis Sədrinin forumda irəli sürdüyü Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünün reallaşması eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və inkişafı üçün geniş imkanlar açacaqdır.

### *Xalq-ordu-rəhbər birliyi qələbənin rəhnidir*

Muxtariyyətin qorunmasını şərtləndirən başlıca amillərdən biri vətənpərvərlik hissinin gücləndirilməsi, Vətəni müdafiə əzminin formalaşdırılması idi. Naxçıvan 1918-1920-ci illərdə olduğu kimi, 80-ci illərin sonlarında da erməni hücumlarına qarşı təkbətək, əliyalın mübarizə aparmalı oldu. Naxçıvan Vətənə sədaqət, rəhbərə inam, iradə və qətiyyət hesabına işğal təhlükəsindən qurtardı. Bir vaxtlar həmyerlilərimiz Sovet Rusiyasının ucqarlarında, tikinti-inşaat dəstəsində çalışmaqla hərb sənətindən uzaq hərbi xidmət keçməyə məcbur edilirdisə, artıq Vətən sərhədlərini müdafiəyə, müstəqil dövlətin ərazi bütövlüyünü qorumağa layiq hərbi heyət yetişdirilməyə başlanıldı. Ümummilli liderimiz Ali Məclisin Sədri seçildikdən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etdi. Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülməyə başlandı. Burada yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olundu, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradıldı, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası qoyuldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ulu öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirməsi nəticəsində uzun illər ərzində formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir.

2017-ci il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələrinin güc və qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdi, xalqımızın milli qürurunu və qələbəyə inam hisslərini daha da artırdı.

Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi və hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı Azərbaycan əsgərinin rəşadət əzmini bir daha göstərdi. Belə ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca Qızılqaya və Qaraqaya kimi əlverişli yüksəkliklər geri qaytarıldı. İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna tam nəzarət əldə olundu. Bu qələbə qədim hərb ənənələrinə malik olan muxtar respublikanın ərazi toxunulmazlığını, Azərbaycan əsgərinin rəşadət əzmini bütün dünyaya bəyan etdi.

### *Yeni iqtisadi təfəkkür blokadada iqtisadi inkişaf modelinin əsasıdır*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da qeyd etdiyi kimi, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırıldı, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edildi. Naxçıvan blokadanın yaratdığı iqtisadi böhran kimi ağır sınaqdan mətinliklə çıxmışdır. Dahi şəxsiyyətin rəhbərliyi, naxçıvanlıların əzmkarlığı, iradə və gücü ilə dağılmış iqtisadiyyat bərpa edildi. 1990-1993-cü illərdə Naxçıvanda qonşu dost ölkələrlə əlaqələrin yaradılması, ərzaq, enerji təminatı məsələlərinin həlli, ölkənin paytaxtı ilə hava yolu əlaqəsinin genişləndirilməsi, aqrar islahatlara başlanılması kimi mühüm işlər görüldü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilməsi, torpaq islahatlarına ilk dəfə Naxçıvanda başlanması insanlarda halal torpağına və halal qazancına sahiblik haqqı kimi yeni təfəkkür formalaşdırmış, zəhmət adamlarını torpağa bağlamaqla, bütövlükdə, ölkəmizdə kənd təsərrüfatının gələcək inkişafının əsası qoyulmuşdur.

Son 20 ildən artıq bir dövr ölkəmizdə makroiqtisadi sabitliyə nail olunması ilə bərabər başlanan və cəmiyyətin bütün sahələrini, o cümlədən iqtisadiyyatı əhatə edən genişmiqyaslı inkişaf mərhələsidir. Bu gün iqtisadiyyatın şaxələndirilməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir, yeni iş yerləri yaradılır. Muxtar diyarımızda irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri aparılır, təhsil, səhiyyə, idman və mədəniyyətin maddi-texniki bazası ilbəil gücləndirilir. Bu dövrdə blokadanın ağır nəticələrinin aradan qaldırılması ilə əhalinin həyat səviyyəsi yüksəldilmiş, bir vaxtlar dolanışıq üçün başqa şəhərlərə, ölkələrə üz tutan insanlar yenidən doğma yurda qayıtmış, öz zəhməti, fəaliyyəti ilə Naxçıvana xidmət etməyə başlamışlar.

Əvvəllər elektrik enerjisinə, mavi yanacağa həsrət qalan, zülmət səltənətini xatırladan, mühüm strateji obyektlərin belə, işıq və qazla təchiz edilə bilmədiyi muxtar respublikanın ötən dövrdə əldə etdiyi ən böyük uğurlardan biri enerji təhlükəsizliyinin təmin edilməsidir. Bir zamanlar enerjini idxal hesabına əldə edən Naxçıvan Muxtar Respublikası hazırda enerji ixracatçısına çevrilib. Bu gün Naxçıvanda müxtəlif elektrik stansiyaları fəaliyyət göstərir, ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78 faizdən çoxu muxtar respublikanın payına düşür. Eyni zamanda Naxçıvanda elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş Avropa ölkələri üçün çox nadir göstərici hesab edilir.

Enerji təhlükəsizliyinin təmin olunması muxtar respublikada sənayenin inkişafına da əsaslı zəmin yaradıb. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublikada bu gün aqrar-sənaye kompleksi formalaşıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 20 il bundan əvvəl 15 növdə məhsula olan tələbatı yerli imkanlar hesabına ödənilən Naxçıvan Muxtar Respublikasında hazırda 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Kənd təsərrüfatının inkişafı üçün də geniş imkanlar açılıb, fermer və torpaq mülkiyyətçiləri hərtərəfli qayğı ilə əhatə olunublar. Yerli istehsalın həcmi artırılıb, sağlam rəqabət mühiti yaradılıb. Min hektarlarla torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, mütərəqqi suvarma şəbəkələrinin qurulması, qəbul edilən dövlət proqramlarının uğurlu icrası kənd təsərrüfatı məhsullarının artımına imkan yaradıb. Naxçıvanda kənd təsərrüfatı əhalinin əsas məşğuliyyət sahəsinə çevrilib.

Bu gün muxtar respublikada sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilməsi nəticəsində ümumi daxili məhsul istehsalında bu sahənin payı artır, hər il yeni istehsal müəssisələri fəaliyyətə başlayır. 15-20 il əvvəl muxtar respublika, demək olar ki, idxaldan asılı vəziyyətdə idi. Bu gün isə görülən məqsədyönlü tədbirlər nəticəsində, təkcə ötən il 424266,6 ABŞ dolları həcmində məhsul ixracına nail olunmuşdur. 2018-ci ildə ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 63, sənaye məhsulunun həcmi 108, əsas kapitala yönəldilən investisiyalar 333, kənd təsərrüfatının ümumi məhsulu 12 dəfə, əhalinin gəlirləri isə 59 dəfə artıb.

Muxtariyyətin bəhrələrindən biri kimi Naxçıvanın iqtisadi potensialının durmadan artmasını göstərmək olar. Bunun ifadəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə liderliyi əldə edib.

### *Mədəni tərəqqiyə və dünyaya inteqrasiyaya aparan yol*

Muxtar respublikada aparılan uğurlu siyasətin daha bir ifadəsi də söz, fikir və mətbuat azadlığının təmin edilməsidir. Bu gün Naxçıvanda insanlara sərbəst yaradıcılıq imkanları verilib. Kütləvi informasiya vasitələrinin maddi-texniki bazası gücləndirilib, yeni informasiya agentliyi fəaliyyətə başlayıb, media nümayəndələri hərtərəfli qayğı ilə əhatə olunublar. Muxtar respublikanın yaşayış məntəqələrinə fiber-optik kabel xətlərinin çəkilişi və sürətli internetə çıxış imkanının yaradılması insanların informasiya tələbatının tam ödənilməsinə imkan verir.

Bütün bunların nəticəsidir ki, muxtar respublikanın informasiya blokadası ləğv edilib, məlumat azadlığı təmin olunub. İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) rəsmi internet səhifəsində, "Euronews" telekanalında, ABŞ-ın nüfuzlu "Conde Nast" jurnalında, Yaxın Şərqdə çoxsaylı tamaşaçı kütləsinə malik olan Qətərin "Əl-Cəzirə Sənədli Film" televiziya kanalında, Türkiyə mətbuatında – dünyanın müxtəlif kütləvi informasiya vasitələrində Naxçıvanın tarixi, müasir inkişafı, nailiyyətləri ilə bağlı materialların yer alması deyilənləri bir daha təsdiq edir.

Tarixi çox qədimlərə söykənən Naxçıvan bir vaxtlar milli və mənəvi dəyərlərimizi əks etdirən abidələrimiz laqeydlik və biganəlik üzündən dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ali Məclis Sədrinin qayğısı ilə ötən dövrdə muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılıb, 70-dən çox dünya əhəmiyyətli abidə bərpa olunaraq Azərbaycan xalqına qaytarılıb. Ali Məclis Sədrinin sərəncamları ilə ötən dövrdə görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin, ictimai xadim və publisist Məhəmməd ağa Şahtaxtlının, dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin, şair-dramaturq İslam Səfərlinin, Xalq şairi Məmməd Arazın, pedaqoq və elm xadimi Əziz Şərifin, publisist və pedaqoq Eynəli bəy Sultanovun, görkəmli rəssamlar Bəhruz Kəngərlinin, Şamil Qazıyevin və İbrahim Səfiyevin, böyük mütəfəkkir Nemətullah Naxçıvaninin ədəbi-bədii, elmi-publisistik və maarifçilik fəaliyyətləri öyrənilmiş, onların qiymətli irsi xalqa qaytarılmışdır.

Tariximizin saxlanc yeri olan muzeylərin formalaşması və inkişafına dövlət qayğısı yerli əhalini də bu işə sövq edib. İllərdir həyata keçirilən "Muzey günləri" bir vaxt yaşadığı diyarda hansı muzeylərin fəaliyyət göstərməsindən xəbərdar olmayanlara da tariximizi, mədəniyyətimizi, mənəviyyatımızı tanıtmaqdadır. İnsanlar vaxtilə antikvar kimi şəxsiləşdirdikləri nadir tarixi eksponatları muzeylərə təqdim etməklə mədəni sərvətlərimizin, maddi irsimizin ümumxalq malına çevrilməsi kimi müqəddəs məramlı bir kampaniyaya qoşuldular. Bu yaxınlarda Şərur məktəblilərinin rayon Tarix-Diyarşünaslıq Muzeyinə 75 eksponat hədiyyə etməsi bu zəruri ənənənin gələcək nəsil tərəfindən də davam etdiriləcəyinə zəmanət verir.

Muxtariyyətin və müstəqilliyin mədəni şüur səviyyəmizə qazandırdıqlarından danışarkən Naxçıvanda doğma təbiətə və təbii sərvətlərə münasibətdə də sağlam təfəkkürün formalaşdığını xüsusi qeyd etmək yerinə düşər. Vaxtilə blokada ucbatından elektrik və istilik enerjisindən məhrum naxçıvanlılar yaşamaq uğrunda mübarizə aparmaq məcburiyyətində qaldıqları üçün ucsuz-bucaqsız meşəliklər, meyvə bağları kötük başdaşılarından ibarət qəbiristanlıqlara çevrilmişdi. Bu gün isə yurdsevər və qədirbilən naxçıvanlılar sanki ana təbiətə xilaskarlıq borcunu qaytarmaqla diyarımızı yaşıllıqlar, gülkarlıqlar diyarına, gülüstana çeviriblər. Keçirilən ümumxalq iməcilikləri, ekoloji aksiyalar nəticəsində bu gün muxtar respublika ərazisinin 14 faizindən çoxunu yaşıllıq təşkil edir.

Qürurla deyə bilərik ki, minillik tarixi olan mədəni irsimiz beynəlxalq səviyyədə də yetərincə tanıdılır. Ali Məclis Sədrinin tapşırığına əsasən 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin YUNESKO səviyyəsində qorunması ilə bağlı tədbirlər həyata keçirilib, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Ümumilikdə, bütün sahələr üzrə əldə edilən uğurlar Azərbaycanın Naxçıvan Muxtar Respublikasının nüfuzunun getdikcə yüksəlməsinə öz töhfəsini verir. Təbii ki, bütün bu görülən işlərdə muxtariyyət statusu da əhəmiyyətli rol oynayıb.

Bir vaxtlar "təklənmiş ada" vəziyyətinə salınan, müharibə, böhran zonası kimi tanınan Naxçıvan bu gün inkişaf, sabitlik və asayiş məkanı kimi beynəlxalq idman tədbirlərinə, elmi konfranslara, festivallara ev sahibliyi edir. Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilib, Naxçıvanda "Avropa günləri", Türk Şurası Gənc Liderlərinin ilk forumu, eləcə də TÜRKSOY-un "Türk-İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda ilk dəfə beynəlxalq konfrans keçirilib.

Düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün və muxtariyyətin qiymətli quruculuq və dövlətçilik salnaməsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir. Onu da bildirmək istəyirəm ki, bu il Naxçıvan bütün İslam dünyasında artıq özünü göstərəcək. Çünki bu il Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır. Bir neçə il bundan əvvəl Bakı bu ada layiq görülmüşdür və biz o vaxt İSESKO-ya müraciət etmişdik ki, biz istəyirik ikinci Azərbaycan şəhəri – məhz Naxçıvan şəhəri bu ada layiq görülsün. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var – bu məkanın adı Naxçıvandır".***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***"Naxçıvanın ən qiymətli sərvətlərindən biri də dövlətçilik ənənələrinin davamı olaraq formalaşan Naxçıvan muxtariyyətidir".*** *Ulu öndərimizin yolunun uğurla davam etdirildiyi, qətiyyətli addımlarla firavan gələcəyə doğru irəliləyən Naxçıvanımız tarixə həm də "Muxtariyyət ili" kimi daxil olan 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini möhtəşəm tədbirlərlə qeyd etmişdi. Bu gün diyarımız muxtariyyətinin növbəti yubileyinə hazırlaşır. Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na əsasən bu yubiley də təntənəli şəkildə qeyd olunur. Qoca Şərqin köksündə qürurla döyünən, müasirliyi də qədimliyi qədər dəyərli və möhtəşəm olan bu məkanın tarixə QURUCU RƏHBƏR imzası ilə yazılacaq qalibiyyət, zəfər dolu günləri isə hələ qarşıdadır. Tarix də, öz növbəsində, "Müasir Naxçıvan" adlı bu möhtəşəm əsərin müəllifini əbədi yaşadacaq!*

**Mehriban SULTAN**

Turizm

# Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi üzrə rekreasiya qiymətləndirməsi



*Ölkəmizdə qeyri-neft sektorunun inkişafına verilən diqqət və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan konkret addımlar bu sahədə mühüm əhəmiyyətə malik olan turizmin də müxtəlif növ və formalarının inkişaf etdirilməsini ön plana çəkir. Bu məqsədlə bütün dünyada olduğu kimi, ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında turizm-rekreasiya sənayesinin sürətli inkişafı üçün əlverişli və komfort şəraitə malik olan yeni ərazilərin tədqiqi və buradakı mövcud şərtlərin rekreasiya qiymətləndirilməsi əhəmiyyət kəsb edir. Bu baxımdan Şahbuz rayonunun Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi üzrə aparılan təhlil də burada həyata keçirilən turizm fəaliyyəti üçün kompleks elmi nəticə əldə edilməsi məqsədi daşıyır.*

Təbii ehtiyatlardan, xüsusən onların turizm məqsədilə istifadə olunmasında mövcud potensialın qiymətləndirilməsi həyata keçirilən tədbirlərin ilk mərhələsidir. Bu məsələdə ilk olaraq coğrafi əlamətlərə görə aparılan qiymətləndirmə nəzərdə tutulsa da, daha sonra iqtisadi, ekoloji və demoqrafik-sosioloji faktorların da nəzərə alınması ilə aparılan təhlil ərazinin rekreasiya spesifikasının açılması və onun turizm-ekskursiya fəaliyyətinə yararlığının öyrənilməsi baxımından əhəmiyyətlidir. Burada əldə olunacaq nəticə istənilən ərazidə, xüsusən təbii ekosistemi daha həssas olan bölgələrdə dayanıqlı turizm fəaliyyətinin təşkili üçün çıxış nöqtəsi ola bilər.

Elmi ədəbiyyatlarda ilk olaraq ərazinin rekreasiya ehtiyatlarının qiymətləndirilməsi zamanı aparıcı rol oynayan landşaft amilinə üstünlük verilir. Bu məqsədlə qiymətləndirilmə zamanı relyef, bitki, su mənbələri, iqlim, estetik zənginlik, nəqliyyat imkanları, təbii ərazi komplekslərinin antropogen yüklənməsi və sair kimi faktorlar öyrənilir. Buna paralel olaraq ərazidən istifadəni çətinləşdirən, onun rekreasiya mənimsənilməsini məhdudlaşdıran bəzi amillər də vardır ki, bunlar torpaq və qar sürüşmələri, torpağın sıx yarğan şəbəkəsi, intensiv parçalanmış dayanıqsız dik dağ yamacları, sərt iqlim amplitudası, eyni zamanda təsərrüfat əhəmiyyətli obyektlərin və məskunlaşma məntəqələrinin sıx yerləşməsi hesab olunur.

Rekreasiya qiymətləndirilməsi, konkret olaraq, tibbi-bioloji, psixoestetik və texnoloji olaraq üç tipdə həyata keçirilir. Rekreasiya fəaliyyətində tibbi-bioloji təsirlərin, başqa sözlə, insanın sağlamlığının qorunması üçün təbii ehtiyatların gücündən istifadənin əhəmiyyəti böyükdür. Bu mənada, ərazidə mövcud olan iqlim komfortluğu, onun insan orqanizminə təsiri burada əsas qiymətləndirmə obyektidir. Belə ki, əgər insan orqanizmi əraziyə xas olan konkret hava şəraitinə bir reaksiya verirsə, o zaman belə iqlim şəraitinin rekreasiya baxımından qiymətləndirilməsindən danışmaq mümkündür. Bu zaman havanın təkcə fiziki deyil, həm də emosional təsir gücü nəzərdə tutulur.

Psixoloji-estetik tipdə qiymətləndirmə landşaftın və ya onun hər hansı bir komponentinin fərqli xüsusiyyətinin insana göstərdiyi təsirlə ölçülür. Bu mənada, ərazinin estetik dəyəri həmişə yüksək tələbatla qiymətləndirilir. Estetik dəyər kimi burada mövcud olan peyzaj müxtəlifliyini, ərazinin yaşıllığı, ağac və kolların sıxlığı, habelə onunla qonşu olan təbii komplekslərlə qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, son illərdə dünyada psixoloji-estetik cəhətdən rekreasiya qiymətləndirməsi metodları kimi ekzotik və unikal xüsusiyyətlərin də öyrənilməsi tətbiq olunur.

Texnoloji qiymətləndirmə isə rekreasiya məqsədilə təbii ehtiyatların texniki və texnoloji cəhətdən istifadə olunması məqsədilə aparılır. Bu zaman onların istifadəsi ilə yaranan müalicə-sağlamlıq imkanları araşdırılır.

Rekreasiya fəaliyyətinin aparılması ehtiyatlardan istifadəni şərtləndirsə də, bu zaman sosial-iqtisadi faktorların da əlaqələndirilməsi tələb olunur. Bu mənada, ərazinin təsərrüfat və sənaye məqsədli istifadəsi, hər 1000 kvadratmetrə düşən insan sayı, əhalinin məşğulluğu, sağlamlığı və uzunömürlülük səviyyəsi, habelə infrastruktur, ümumi ekoloji vəziyyət kimi faktorlar qiymətləndirmənin vacib detallarındandır. Bütün bunlar isə insanların rekreasiyasına, yəni onların sərf olunmuş fiziki, zehni və emosional enerjisinin bərpa olunmasına mühüm təsir edərək yeni tələbatların yaranmasına səbəb olur.



Naxçıvan Muxtar Respublikasının müxtəlif əraziləri özünün təbii-iqlim şəraiti, relyef quruluşu və onlardan istifadə imkanlarına görə rekreasiya fəaliyyəti üçün əlverişli sayılır. Muxtar respublikada mövcud olan müalicə, ekoturizm və digər təbiətyönümlü turizm ehtiyatları hesabına müxtəlifməzmunlu turizm-rekreasiya xidmətləri göstərilir. Qeyd olunanlara əsasən Şahbuz rayonu ərazisindəki Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi üzrə rekreasiya qiymətləndirməsinə baxdıqda landşaft, iqlim, illik yağıntı, habelə estetik panoramik mənzərə, su və torpaq ehtiyatları, bitki örtüyü və ilkin görüntüsü pozulmamış təbii ekosistem kimi faktorların ön plana çıxdığını qeyd edə bilərik. Yayın nisbətən sərin, qışın qarlı və mülayim keçdiyi bu ərazilər təkcə muxtar respublikamızda deyil, eləcə də yaxın bölgədə turizmin inkişafı baxımından unikal ərazilərdən biri hesab olunur.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi Şahbuz rayonunun eyniadlı ərazisində yerləşir. Turistlər Naxçıvan şəhərindən, təqribən, 60 kilometr məsafədəki bu turizm məkanına yeni salınmış asfalt yolla qısa zamanda çata bilirlər. 65 yaşayış evi və təxminən, 500 nəfərə yaxın əhalisi olan Ağbulağın 1500 hektara yaxın ərazisi vardır. Belə bir nisbətdə olan ərazi və əhali sıxlığı rekreantlar üçün müxtəlif aktiv istirahət turlarının təşkili baxımından əlverişlidir. Kəndin təmiz havası, saf suyu, ekoloji təmiz məhsulları da buranın turizm cazibədarlığını artıran amillərdəndir. Bölgədə yaşayan yerli əhalinin rahatlığı üçün enerji, içməli su təminatı, rabitə və kommunikasiya sistemlərinin mövcudluğu, yerli əhalinin rekreasiya təsərrüfatının işində maraqlı olması da Ağbulağın rekreasiya dəyərini artırır. Hələ 2013-cü ildə burada yaradılmış Ağbulaq İstirahət Mərkəzi hər il çox sayda yerli və xarici ölkə turistlərinin istirahət etdiyi məkana çevrilib. Belə ki, həmin ildə Ağbulaq kəndində müasir tələblərə cavab verən məktəb binası, kənd və xidmət mərkəzləri də tikilərək istifadəyə verilib. Bu yaxınlarda isə hər bir kənd sakininin evində yenidənqurma işləri aparılıb, həyətlər abadlaşdırılıb. Kənddaxili avtomobil yollarına qum-çınqıl qatı verilib, su keçidləri salınıb, yeni yollar çəkilib, elektrik təchizatı sistemi yenilənib.

Hazırda Ağbulaq İstirahət Mərkəzində turizmin sosial formasında populyar istirahət növləri təşkil olunur. Gənclərin və digər yaş kateqoriyalarından olan insanların burada keçirdikləri günlər daha yaddaqalan olur. Ağbulaq kəndinin yerləşdiyi coğrafi en kəsiyi, onun dəniz səviyyəsindən hündürlüyü və relyef quruluşu burada isti yay günləri ilə yanaşı, ilin bütün fəsillərində, o cümlədən qışda da mənalı istirahət və rekreasiya turları keçirməyə imkan verir. Xüsusən qış aylarında, başqa sözlə, turizm sahəsində işlərin mövsümi olaraq zəiflədiyi bir vaxtda Ağbulaqda təşkil olunacaq turlar sağlamlıq və rekreasiya baxımından insanlar üçün faydalıdır. Ötən ilin yayında tikintisinə başlanılmış 1590 metr uzunluğunda Ağbulaq Xizək Mərkəzi, bu mənada, ərazinin rekreasiya dəyərini daha da artıran mühüm tədbirlərdəndir.

Rekreasiya fəaliyyətində təbii-iqlim və landşaft faktoru ilə yanaşı, insan amilinin, müasir menecmentin də xüsusi rolu vardır. Belə ki, rekreasiya zonaları ətraf mühitin mühafizəsinə, buradakı təbii ekosistemin və landşaftın ibtidai görüntüsünün qorunub saxlanılmasına çox həssasdır. Habelə rekreasiya zonasında məskunlaşmış yerli əhalinin həyat səviyyəsinin daimi yüksəlmə meylinə uyğun olaraq məşğulluq məsələlərinin həll olunması və mövsümilik faktoruna qarşı marketinq tədbirləri idarəetməni zəruri edən amillərdəndir. Bu baxımdan ötən il dekabrın 5-də Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən aidiyyəti təşkilatlara verilmiş tapşırıqların icrası bu sahədə qarşıya qoyulmuş vəzifələrin həllində müsbət nəticələr verəcəkdir.

**Əli CABBAROV**
***"Naxçıvan" Universitetinin dosenti***

*Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) və ali təhsil müəssisələrinə qəbul imtahanlarında tətbiq ediləcək yeni qaydalar və modellər haqqında Azərbaycan dili, riyaziyyat, ingilis, fransız və rus dili fənləri üzrə Naxçıvan şəhərində elmi-metodik seminarlar keçirilib.*

# Qəbul imtahanlarının yeni qaydaları ilə bağlı elmi-metodik seminarlar keçirilib



Naxçıvan Dövlət Texniki Kollecində bununla bağlı keçirilən plenar iclası Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov açaraq bildirib ki, bu gün muxtar respublikamızda təhsil və ixtisaslı mütəxəssis hazırlığı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bunun nəticəsidir ki, təhsilin keyfiyyəti hər il yüksəlir, ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində davamlı artım dinamikası müşahidə edilir.

Qeyd olunub ki, bu ildən etibarən təhsil pillələrinin bütün səviyyələrini əhatə edən yeni qiymətləndirmə mexanizmlərinin tətbiqinə başlanılıb. Cari tədris ilində XI sinfi bitirən şagirdlər yeni məzmun əsasında ümumi təhsili başa vuran ilk məzunlar olacaqlar. Bu səbəbdən də onların buraxılış imtahanlarının yeni formatda təşkili ilə bağlı yeni qaydalar hazırlanıb. Yeni imtahan modeli məktəbin və müəllimin həm məsuliyyətinin, həm də nüfuzunun artmasına, eyni zamanda şagirdlərin biliklərinin hərtərəfli qiymətləndirilməsinə əhəmiyyətli şəkildə təsir edəcəkdir.

Vurğulanıb ki, bu gün keçirilən elmi-metodik seminarlarda əsas məqsəd yeni qaydalar və modellər haqqında məlumat verməkdir.

Sonra çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanının nəticələrinin regional təhlili, ümumi təhsil bazasında buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarının qaydalarından danışıb, mərkəzin yeni layihələri və imtahanların modelləri barədə məlumat verib.

Məleykə Abbaszadə bildirib ki, ötənilki IX və XI siniflərin buraxılış imtahanlarının nəticələrinə əsasən Naxçıvan Muxtar Respublikasının həm ümumi, həm də ayrı-ayrı fənlər üzrə orta bal göstəriciləri ümumrespublika üçün ən yüksək göstərici olub. Bu da belə deməyə əsas verir ki, burada təhsilin inkişafına göstərilən qayğı, eləcə də mütərəqqi tədris metodlarından səmərəli istifadə öz müsbət nəticəsini verir.

Plenar iclasda pedaqoqları maraqlandıran suallar cavablandırılıb.

Sonra Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə seminarlar keçirilib, müxtəlif mövzularda təqdimatlar dinlənilib.

Sonda təqdimatlar ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Xalq rəssamının yubileyi qeyd edilib

***Ötən şənbə günü Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, muxtar respublikamızda tanınmış sənət adamlarına yüksək diqqət və qayğı göstərilir. Ali Məclis Sədrinin göstərişinə əsasən onların yubileyləri yüksək səviyyədə qeyd edilir. Bu gün keçirilən yubiley də bu ənənələrin uğurlu davamıdır.

Nazir yubileyi qeyd edilən Xalq rəssamının həyat yolu və yaradıcılığı haqqında ətraflı məlumat verərək bildirib ki, onun yaradıcılığında portret janrı, qədim diyarımızın keçmişini və bu gününü əks etdirən mənzərə əsərləri mühüm yer tutur. Xalq rəssamının "Mənim Naxçıvanım" kompozisiyasında fikir və duyğunun incə vasitələrlə, zərif cizgilərlə ifadə edilməsi təbiilik və dolğunluq ifadəsidir. Rəssam müxtəlif janrlara müraciət etsə də, onun yaradıcılıq təxəyyülü özünəməxsusluğu, monumentallığı, ritm və koloriti, duyum tərzi ilə seçilir.

Vurğulanıb ki, Xalq rəssamının pedaqoji fəaliyyəti də təsviri incəsənətimizə xidmətin gözəl nümunəsidir. Gənc rəssam kadrlarının hazırlanmasında onun xidmətləri xüsusi olaraq qeyd edilməlidir. Sənətkar uzun illərdir ki, Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur. Universitetin Təsviri incəsənət və rəsm kafedrasının müdiri, professordur.

Bildirilib ki, Hüseynqulu Əliyevin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Görkəmli sənətkar 1988-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi", 1999-cu ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı", 2002-ci ildə "Azərbaycan Respublikasının Xalq rəssamı" fəxri adlarına layiq görülüb.

Nazir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından Xalq rəssamına hədiyyə təqdim edib və onu təbrik edərək yaradıcılıq yolunda uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva rəssamı təbrik edib, onun qədim diyarımızda təsviri incəsənətin və heykəltəraşlığın inkişafındakı xidmətlərindən söhbət açıblar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Həbibə Allahverdiyeva, Səyyad Bayramov, Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov, Xalq artistləri Rza Xudiyev, Kamran Quliyev, Azərbaycan Respublikasının Əməkdar artisti Xəlil Hüseynov çıxış edərək yubilyara ürək sözlərini bildiriblər.

Sonda Xalq rəssamı Hüseynqulu Əliyev çıxış edərək yaradıcılığına verilən yüksək qiymət üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə dərin minnətdarlığını bildirib, təsviri incəsənətimizin inkişafı və yeni rəssam kadrlarının hazırlanmasında bundan sonra da səylə çalışacağını deyib.

**Əli RZAYEV**

*Deyirlər ki, övladınıza gözəl adlar seçib qoyun, çünki ad sahibinin xarakterinə də, gələcək həyatına da təsir göstərir. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası Nurbəniz Niftəliyevanın həm nur bənizini, həm də onun yaratdığı obrazlarla son illər sənət aləmində öz sözünü deyən Naxçıvan teatrının səhnəsində bir nur kimi doğduğunu görənlər bu xanımın adını olduqca gözəl daşıdığını, ona, həqiqətən, layiq olduğunu etiraf edərlər.*

# Səhnəmizin nur bənizlisi



Aktyorluq çox çətin bir peşədir. İnsanların qarşısına çıxmaq, onların diqqətini özünə cəlb etmək, səhvə yol verməmək, yaratdığın obrazı tamaşaçılara sevdirmək, bir sözlə, onları tamaşanın sonunadək teatr salonunda əyləşdirə bilmək istedad və böyük məharət tələb edir. Bütün bunlar Nurbənizdə olduğu üçün indi o, hər kəsin sevdiyi aktrisadır.

Nurbəniz Niftəliyeva 1984-cü ildə Şərur rayonunun Xanlıqlar kəndində anadan olub. Kənd məktəbində orta təhsil alıb. Məktəbdə oxuduğu illərdə rayon mədəniyyət evində keçirilən mədəni-kütləvi tədbirlərin, şeir müsabiqələrinin ən fəal iştirakçılarından olub. Aktyorluq sənətinə yiyələnmək arzusunda olan Nurbənizə Şərur Xalq Teatrının rejissoru Nəsimi Məmmədzadə yaxından köməklik göstərib, hətta onu qabiliyyət imtahanına belə, o hazırlaşdırıb.

Nurbəniz 2004-cü ildə Bakı Mədəni-Maarif Texnikumunun Kütləvi tədbirlərin rejissoru ixtisasına daxil olur. 2007-ci ildə texnikumu bitirib, elə həmin il də İrəvan Dövlət Azərbaycan Dram Teatrına aktrisa kimi işə qəbul olunur. Burada bir sıra obrazlara həyat verir.

2011-ci ilədək bu teatrda çalışan Nurbəniz elə həmin il Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin və Nəsimi Məmmədzadənin təklifi ilə Naxçıvana qayıdır və dram teatrda fəaliyyətə başlayır. 2014-cü il Nurbənizin həyatında iki əlamətdar hadisə baş verir. O, Prezident mükafatçısı olur və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Solo oxuma ixtisasına qəbul olunaraq ali təhsil almağa başlayır. Onsuz da gözəl səsi olan Nurbənizin həm bu sahədəki təhsili, həm də teatrda birbirindən maraqlı, rəngarəng rolları onu sənət dünyasının yollarında uğurlu bir yolçuluğa çıxarır. Nazim Hikmətin "Kəllə" əsərində Dolbanezonun qızı, Anton Çexovun "Russayağı evlənmə"sində Natalya Stepanovna, Əli Əmirlinin "Varlı qadın"ında Həvva, Çingiz Aytmatovun "Manqurt"unda Qazanqapın qızı, Məmməd Səid Ordubadinin "Qılınc və qələm"ində Qətibə, Nəriman Nərimanovun "Nadanlıq"ında Gülpəri, Hüseyn Cavidin "Xəyyam"ında Sevda, Moris Meterlinkin "Göy quş"unda Pişik, Mirzə Fətəli Axundzadənin "Kimyagər"ində Şərəfnisə və sair rollar aktrisanın obrazlar qalereyasını yaradır, onu yüzlərlə tamaşaçının sevimlisinə çevirir.

Əli Əmirlinin "Varlı qadın"ına tamaşa edənlər aktrisanın burada ikili xarakterli obrazın öhdəsindən böyük bacarıqla gəldiyini müşahidə ediblər. Həvvanın əvvəlki həyatında yoxsul, düşkün və miskinliyini, varlandıqdan sonra isə hiyləgər və özündənrazı halını böyük məharətlə canlandıran aktrisa məhz bu qabiliyyəti ilə ürəklərə yol tapıb. Nurbəniz, eyni zamanda bu illər ərzində Şərur Rayon Xalq Teatrının tamaşalarına da dəvət alır.

"Oxunması zəruri olan kitablar" silsiləsindən olan Məmməd Səid Ordubadinin "Qılınc və qələm" əsərinin səhnələşdirməsi teatrımızın boyük uğuru ilə yanaşı, həm də Nurbənizin sənət yolunda yeni bir qələbəsi olur. Əsərdəki Qətibə obrazı gənc aktrisanı Naxçıvan teatrının səhnəsində bir nur kimi parladan obraz olaraq yaddaşlara köçürür. Tamaşaya baxan və tamaşadan sonra aktyor heyəti ilə görüşən Ali Məclisin Sədri demişdir: ***"... Hər tamaşada bir obraz daha çox diqqəti cəlb edir. Bu tamaşada da Qətibə xatın obrazı mükəmməl yaradılmışdır. Bu cür obrazların yaradılması üçün gərək aktyorda istedad olsun. Tamaşada hər bir aktyorun istedadı görünürdü. Zəhmət çəkiləndə istənilən uğura nail olmaq mümkündür. Ancaq çəkilən zəhmətə, o tamaşaya, o rola ürəklə bağlananda isə həmin obraz təkcə oynanılmır, həm də yaradılır və yaşadılır. "Qılınc və qələm" tamaşasında da obrazları yaradan hər bir aktyor həm də öz vətəndaş sevgisini ortaya qoymuşdu".***

Əksəriyyətinin quruluşçu rejissoru Tofiq Seyidov olan tamaşaların bir neçəsinə Nurbəniz ikinci rejissorluq da edib. O, həm də tamaşalara mahnı oxumaq və rəqs kimi əlavələri etməklə tamaşaçıların marağına səbəb olan yeniliklərin müəllifidir. Belə tamaşalardan birində, əsasən, gənc aktyor truppasının iştirak etdiyi "Xəyyam" da canlı ifa etdiyi üç mahnı onun gənc aktrisa kimi istedadını ortaya qoydu, gələcəyin məşhur sənət adamı olacağının müjdəsini verdi.

2015-ci ildə Gənclərin III Ümumrespublika Teatr Festivalında Nurbəniz Niftəliyeva "Ən yaxşı aktrisa" nominasiyasının qalibi olur. O, 2016-cı ildən həm də Naxçıvan Dövlət Uşaq Teatrında rejissor kimi fəaliyyətə başlayıb. Onun bu teatrda da yaddaqalan rolları və quruluş verdiyi tamaşalar var. Öz istedad və bacarığı ilə uşaqların sehrli aləminə təmas edə bilən bu xanım teatrda Abdulla Şaiqin "Danışan kukla" əsərində Şahzadə, teatrın 10 illik yubileyi münasibətilə hazırlanan Antuan de Sent-Ekzüperinin "Balaca Şahzadə" əsərində balaca Şahzadə obrazını məharətlə yarada bilib. Həmçinin Nurbəniz "Balaca Şahzadə"nin, Cəlil Məmmədquluzadənin 150 illik yubileyi münasibətilə dramaturqun "Çay dəsgahı" pyesinin motivləri əsasında hazırlanaraq bu günün çay dəsgahını əks etdirən tamaşanın, Həsənəli Eyvazlının "Nadan xoruz", Əli Səmədovun "Meşə çaqqalsız olmaz", Bayram İsgəndərlinin "Özgəyə quyu qazan" səhnə əsərlərinin quruluşçu rejissoru olub. Gənc rejissor həm də Novruz, Yeni il şənliklərində və müxtəlif əlamətdar günlərlə bağlı uşaqların iştirakı ilə səhnələşdirilmiş tamaşalara quruluş verir. Onu da vurğulamaq yerinə düşər ki, teatrın Naxçıvan Uşaq Bərpa Mərkəzi ilə birgə layihələrinə əsasən sağlamlıq imkanları məhdud uşaqlar da tamaşalarda rol alırlar. Bu da onların cəmiyyətə inteqrasiyasına xeyli kömək edir. "Meşə çaqqalsız olmaz" və "Özgəyə quyu qazan" tamaşaları tamamilə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə hazırlanıb.

Həm Naxçıvan Dövlət Universitetində, həm də Musiqi Kollecində müəllim kimi də fəaliyyət göstərən Nurbəniz deyir ki, orta məktəb illərindən uşaq teatrına cəlb olunan uşaqlar var ki, indi onlar artıq gəncdirlər, adıçəkilən təhsil ocaqlarını bitirənlər də, hazırda təhsil alanlar da var. Həmin gənclərdən Uğur Nəsirli, Heyran Abdullayeva, Vəli Babayev və Mehri Nəbiyeva hazırda Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi fəaliyyət göstərirlər.

"Aktyor, rejissor… Bax bunlar sizin üçün nə deməkdir. Həm də bəzən bu iki yaradıcı işin öhdəsindən bir arada gəlmək sizə çətin olmurmu?" suallarımın cavabında gənc aktrisa deyir: – Aktyorluq yaradıcı, həm də çətin bir peşədir. Sənə tapşırılan obrazı öyrənməlisən, onun haqqında dərin anlayışın olmalıdır. Sən o rolu hökmən yaşamalısan. Məhz belə olarsa, tamaşaçıya rolunu sevdirə, onun məmnunluğunu qazana bilərsən. Rejissorluq isə deyərdim ki, aktyorluqdan qat-qat çətindir. Əgər tamaşada rol almısansa, tək özünə cavabdehsən, lakin rejissorluq edirsənsə, bütün yaradıcı kollektivin cavabdehi sənsən. Qaldı ki, bir tamaşada həm aktyor kimi rol almağa, həm də ona rejissorluq etməyə, bu, daha çətin və məsuliyyətlidir.

10-dək səhnə əsərində rejissoraktrisa kimi birgə çalışdıqları rejissor Tofiq Seyidovun da Nurbənizin aktyorluq məharəti ilə bağlı fikirlərini öyrəndim. O deyir: "Nurbəniz, ilk növbədə, məsuliyyətli insandır. Verilən obrazı dərindən öyrənən, məşqlərə vaxtında gələn, bir sözlə, rejissorun istəyini, qurduğu səhnənin məğzini tutan aktrisadır. Onun xarici görkəmi, səsi, mahnı ifası, rəqsləri tamamilə səhnənin tələblərinə uyğundur. Düşünürəm ki, Nurbəniz Naxçıvan teatrının tarixinə adını yazdıra bilən sənətkarlardan olacaq".

Bəzən kino və teatrdan söhbət düşəndə sənət korifeylərimiz haqqında deyirlər ki, bir də Azərbaycan səhnəsinə Leyla Bədirbəylilər, Hökumə Qurbanovalar, Amalya Pənahovalar, Zəroş Həmzəyevalar, Sofiya Hüseynovalar gəlməyəcək. Mən bu fikirlərlə heç cür razılaşmıram. Nə üçün məsələyə ümidsiz yanaşırıq, nə üçün gəncləri onların davamçıları kimi görmürük? Axı onlar da qədim mədəniyyətin beşiyi olan bu Vətənin övladlarıdır. Elə söhbəti müsahibimin – Nurbənizin üzərinə gətirib demək istəyirəm ki, bu aktrisanın səhnə mədəniyyətində, emosionallığında və yaratdığı obrazlarda – Həvva, Sevda, Qətibədə mən mərhum aktrisamız Amalya Pənahovanın gəncliyini görürəm. Və ümidvaram ki, Nurbəniz haqqında da bir gün sənətdə öz sözünü demiş aktrisalar haqqında deyilənlərin eynisi söylənəcək.

**Mətanət MƏMMƏDOVA**

## Fənn olimpiadalarının birinci turu başa çatıb



Fevralın 3-də IX-XI sinif şagirdləri arasında məktəblilərin respublika fənn olimpiadasının I şəhər və rayon mərhələsi keçirilib. 688 şagirdin iştirak etdiyi bilik yarışında şagirdlər 8 fənn üzrə öz bilik və bacarıqlarını nümayiş etdiriblər. Şagirdlərə hər fənn üzrə fənn kurikulumuna uyğun olaraq qapalı test formasında hazırlanmış 25-50 sual təqdim olunub. Həmin test tapşırıqlarını cavablandırmaq üçün onlara üç saat vaxt verilib.

Şəhər və rayon mərhələsinin nəticələrinə əsasən hər fənn üzrə hər sinifdən ən yüksək nəticə toplayan şagirdlər yarımfinal turuna vəsiqə qazanacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Tempo turniri keçirilib



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Babək rayon bölməsi və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Gənclər Günü münasibətilə tempo turniri keçirilib.

Turnirdə müəllim və dərəcəli şahmatçılar olmaqla, ümumilikdə, 42 zəka sahibi mübarizə aparıb. 7 turdan ibarət olan yarışın qalibi 6,5 xalla Sadiq Qarayev olub. Ondan yarım xal az toplayan Əli Əliyev ikinci, 5,5 xalla Ərturan İsmayılov üçüncü yerlə kifayətləniblər.

## Şəhər birinciliyi yekunlaşıb



İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində Gənclər Günü münasibətilə yeniyetmə və gənclər (2003-2005-ci illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 11 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı çıxış edib. Dünya Güləş Birliyinin mövcud qaydalarına uyğun keçirilən yarışın yekununa əsasən Nicat Ocaqquliyev (35 kiloqram), Bağır Bağırzadə (38 kiloqram), Samir Bağırzadə (41 kiloqram), Rəvan Novruzov (44 kiloqram), Uğur Məmmədov (47 kiloqram), Turqay Allahverdiyev (52 kiloqram), Kəramət Xudiyev (57 kiloqram), Heydər Nəcəfov (62 kiloqram), Ayxan İsmayılov (68 kiloqram), Ramazan Kərimov (75 kiloqram) və Rəvan Bayramov (85 kiloqram) öz çəki dərəcəsində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

## Voleybol üzrə daxili birincilik

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən voleybol üzrə Uşaq-gənclər idman məktəbinin daxili birinciliyinə yekun vurulub.

Gənclər Günü münasibətilə keçirilən birincilikdə 5 komanda mübarizə aparıb. Son görüşə kimi baxımlı oyun nümayiş etdirən "UGİM-1" komandası finalda Naxçıvan Qarnizonu tam orta məktəbinin komandasını məğlub edərək birinci olub. "UGİM-2" komandası isə birinciliyi üçüncü pillədə başa vurub.

Sonda qalib komandalar diplomlarla mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul elan edir

Qəbul Sərhəd təhlükəsizliyi və idarəetmə ali təhsil ixtisası üzrə aparılacaqdır. Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilən 1-ci ixtisas qrupu üçün nəzərdə tutulmuş ümumtəhsil fənlərindən test üsulu ilə qəbul imtahanları verəcəklər.

Akademiyaya qəbul olmaq istəyən kişi namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Ərizə
2. Anket (anketdə soyadı, atasının adı, doğulduğu il, ay, gün, qeydiyyatda olduğu və yaşadığı yerin ünvanı, təhsili, telefon nömrələri (şəhər və mobil) dəqiq göstərilməli
3. Tərcümeyi-hal
4. Özünün və yaxın qohumlarının (ata, ana, bacı, qardaş, həyat yoldaşı, övladları, həyat yoldaşının atası, anası, bacısı, qardaşı), şəxsiyyət vəsiqələrinin surəti
5. Attestatın surəti notarial qaydada təsdiq edilmiş və ya attestat alınanadək namizədin orta məktəbin 11-ci sinifdə oxuması haqqında arayış
6. Orta ixtisas təhsili haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti
7. Yaşayış yerindən arayış
8. Doğum haqqında şəhadətnamənin surəti
9. Valideynlərin nikah haqqında şəhadətnaməsinin surəti
10. Rəngli şəkil – 3 x 4 (baş geyimsiz, qırmızı fonda).

Dövlət Sərhəd Xidmətinin Akademiyasında təhsil almaq arzusunda olan Azərbaycan Respublikası vətəndaşları aşağıdakı tələblərə cavab verməlidirlər:

Hərbi xidmətdə olmayanlar üçün:

– 2019-cu ildə 17 yaşı tamam olmalı və 20 yaşı tamam olmamalıdır.

– 2019-cu ilin iyul ayının 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılmamış şəxslər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq şəhər (rayon) idarə və şöbələri tərəfindən verilmiş möhlət hüququna dair arayış təqdim etməlidirlər.

Hərbi xidmətdə olanlar üçün:

– Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul olunduğu tarixədək 23 yaşı tamam olmamalıdır.

***Sənədlərin qəbulu və əlavə məlumat almaq üçün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Kadrlar bölməsinə müraciət edə bilərlər. (Əlaqə nömrəsi: 036-545-56-29)***

***Sənədlər 2019-cu il fevral ayının 20-dək qəbul ediləcəkdir.***

**İtmişdir**

Şərur rayon "Düdəngə-Şərab" MMC-yə məxsus 0700302271 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 99